**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 52-3**

Bakı şəhəri 10 aprel 2019-cu il

**"Qələbəyə doğru" kuboku uğrunda intellektual yarışmanın final mərhələsinin keçirilməsi barədə**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ənənəvi olaraq hər il uşaqlar arasında "Qələbəyə doğru" kuboku uğrunda intellektual yarışma keçirilir. Bu il intellektual yarışmanın final mərhələsinin 23 aprel 2019-cu il tarixində Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirin keçirilməsində məqsəd sərhədyanı rayonlardan olan uşaqların asudə vaxtının təşkili, onların Azərbaycanın tarixi, mədəniyyəti haqqında biliklərini artırmaq, uşaqlar arasında inteqrasiya yaratmaq, onların istedadlarının aşkar edilməsi və stimullaşdırılması, eləcə də bu istiqamətdə tədbirlərin keçirilməsinə cəmiyyətin diqqətini yönəltməkdir. Yarışmada Füzuli, Cəbrayıl, Tərtər, Ağdam, Kəlbəcər, Xocavənd, Laçın, Beyləqan rayonlarından olan komandalar (hər rayondan 5 uşağın daxil olduğu 1 komanda olmaqla ümumilikdə 40 uşaq) iştirak edəcəkdir. Komandaların seçilməsi məqsədilə qeyd olunan rayon icra hakimiyyəti orqanlarına daxili seçim turlarının təşkil edilməsi ilə bağlı müvafiq müraciət edilmişdir. İntellektual yarışmada qalıb komandaya "Qələbəyə doğru" kuboku, ilk 3 yerin sahibinə isə diplom və qiymətli hədiyyələr təqdim ediləcəkdir. Bununla bağlı tədbirin maliyyə xərcləri müəyyən edilmişdir.

"Qələbəyə doğru" kuboku uğrunda intellektual yarışmanın final mərhələsinin təşkili məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. "Qələbəyə doğru" kuboku uğrunda intellektual yarışmanın final mərhələsinin keçirilməsi barədə məlumat nəzərə alınsın.
2. Yarışmada iştirak edəcək komandaların müəyyən edilməsi və final mərhələsində iştirakının təmin edilməsi ilə bağlı yerli icra hakimiyyəti orqanları ilə birgə tədbirlər həyata keçirilsin.
3. "Qələbəyə doğru" kuboku uğrunda intellektual yarışmanın final mərhələsinin keçirilməsi ilə bağlı zəruri təşkilati işlər təmin edilsin.
4. Tədbirin kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilsin.
5. Qərarın icrası Uşaq problemləri şöbəsinin müdiri Cəmilə Bağırovaya tapşırılsın.
6. Qərarın icrasına nəzarət sədr müavini Aynur Sofiyevaya və Aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**